Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# Bir çox ilklərə imza atan Sidqi

## O, bütün ömrünü millətin maariflənməsinə həsr etmişdi

**Hüseyn Cavid hələ tələbə ikən "Şərqi-Rus" qəzetinin 1904-cü il 5 yanvar tarixli sayında "Ağayi Hüseyn Rasizadə Naxçıvani" imzası ilə bir publisistik məqaləsi çap olunub. H.Cavid onun üçün çox əziz olan müəllimi Məhəmməd Tağı Sidqinin vəfatı münasibəti ilə yazdığı bu məqalədə: "Elə bilirəm ki, həqiqətdə mənim öz atam vəfat edib" - deyərək bu ölümdən çox təəssüf hissi keçirdiyini və uzun müddət bu itkiylə barışa bilmədiyini söyləyir.**

112 il bundan əvvəl yazılan məqalədə müəllim-tələbə münasibətlərinin necə ali bir səviyyədə olması təsvir olunur. Əslində Məhəmməd Tağı Sidqinin ölümü o zaman onun xeyir-duası ilə maarif və mərifət sahibi olmuş onlarla, yüzlərlə Cavidlərin təəssüf hissinə səbəb olmuşdu.

Bu o M.T.Sidqi idi ki, Mirzə Cəlil onunla bir şəhərdə yaşamağı xoşbəxtlik sayırdı. O, 1901-ci ildə Naxçıvana dostu Qurbanəli Şərifova yazdığı məktubda bunu belə bəyan edirdi: "....indi xoş sənin halına ki, Sidqi ilə bir şəhərdə olursan".

Naxçıvan əhli arasında çox böyük hörmət-izzət sahibi olan M.T.Sidqi dövrünün görkəmli pedaqoqu, şairi, publisisti və ən əsası, bütün varını, varidatını, gücünü, bilik və bacarığını millətinin maarif və mərifəti yolunda sərf edən böyük insan və şəxsiyyət kimi hələ yüz illər sonra da yad ediləcək.

Məhəmməd Tağı (Sidqi) Kərbəlayi Səfər oğlu Səfərov 1854-cü ilin 22 martında Ordubadda anadan olub. Dövrünün bütün uşaqları kimi ilk olaraq mollaxana və mədrəsə təhsili alan M.T.Sidqi sonra İranda Səbzivarda oxuyub. O, gənc yaşlarından Ordubad ipək fabrikində fəhləliyə başlamış və bir neçə il sonra Bakıya gələrək neft mədənlərində işləmişdi. Lakin burada da qərar tuta bilməyən M.T.Sidqi 1885-ci ildə yenidən Ordubada qayıdır. Ailəsini dolandırmaq, bir parça çörək qazanmaq üçün əvvəl dükan açan Məhəmməd Tağı sonra çayçılıqla güzəran keçirməyə başlayır.

Ticarətin ürəyincə olmadığını görən Sidqi bu işdən də uzaqlaşır, 1892-ci ildə Ordubadda "Əxtər" adlı yeni üsullu (üsuli-cədid) məktəb açır. Beləliklə də ömrünün sonuna kimi taleyini ürəkdən sevdiyi məktəb işinə bağlayır.

"Əxtər"ın sorağı tez bir zamanda ətrafa yayılır. 1894-cü ildə bir neçə ziyalı M.T.Sidqini Naxçıvana dəvət edərək məktəb açmasını xahiş edir. Bu dəvəti məmnuniyyətlə qarşılayan Sidqi elə həmin ildə Naxçıvanda "Tərbiyə" ("Məktəbi-Tərbiyə") adlı yeni üsullu məktəbin açılmasına nail olur.

İlk dəfə Sidqinin təşəbbüsü ilə şagirdlər dərs zamanı yerdə həsirin üstündə deyil, partalarda oturaraq dərs öyrənməyə başlayırlar. Çox ilklərə imza atan



"Məktəbi-Tərbiyə"də "Ədəb qaydaları"nı Sidqi özü təsis etmiş və məktəbdə əxlaq qaydalarına yüksək səviyyədə diqqət yetirərək heç bir cəza üsulundan istifadə etməmişdir. Mühüm elmi-pedaqoji dəyərə malik yeddi dərsliyin müəllifi olan M.T.Sidqi insanın əxlaqi saflığını hər şeydən üstün tuturdu. Odur ki, hələ kiçik yaşlarından şagirdlərinə bu yüksək keyfiyyətləri aşılamaq üçün bir pedaqoq kimi vaxtının çoxunu onların ədəb-əxlaqına sərf edərdi.

Dini təhsillə yanaşı dünyəvi təhsilin də tətbiq edildiyi bu yeni üsullu məktəbdə rus, fars, ərəb dilləri tədris edilsə də, Sidqi əsas etibarilə ana dilinin tədrisinə yer verirdi. Ana dilini millətin varlığının əsas əlaməti və tərəqqinin başlıca vasitəsi sayan M.T.Sidqi ərəb, fars və rus dilinin təsiri altında milli müstəqilliyini itirmək təhlükəsilə qarşılaşan ana dilini yad təsirlərdən qorumağa çalışırdı.

Bunlar ondan irəli gəlirdi ki, M.T.Sidqinin maarifçilik fəaliyyətinin əsasında milli dirçəliş və siyasi müstəqillik uğrunda mübarizə dururdu. M.T.Sidqinin bütün varlığı ilə millətinə, xalqına, vətəninə bağlılığını H.Cavidin "Naxçıvanda nə gördüm?" sərlövhəli məqaləsindən də görürük: "Sidqi vətənpərvər idi, həmiyyətli idi, məslək sahibi idi. Millətini sevərdi, əfkar-milliyyəti aydınlatmağı ən birinci məqsəd sayırdı".

Təcrübəli pedaqoq "Heykəli-insanə bir nəzər" ədəbi-fəlsəfi traktatında özünün maarifçilik ideyalarından, pedaqoji görüşlərindən ətraflı bəhs edib. Odur ki, tədqiqatçılar M.T.Sidqinin əsərlərini yüksək, mənəvi-əxlaqi keyfiyyətlərlə zəngin olan əsərlər kimi dəyərləndirirlər.

M.T.Sidqi həm də dövrünün tanınmış publisisti olub. O, Naxçıvanda baş verən hadisələrdən, öz elmi-pedaqoji təcrübəsindən, elmin, maarifin faydasından yalnız Bakıda çap olunan rusdilli "Kaspi" qəzetinə yazmaqla kifayətlənmirdi. O, həm də bu mövzuda olan publisistik məqalələrini Baxçasarayda "Tərcüman"a, İstanbulda "Əxtar"a, Təbrizdə "Nasiri" qəzetlərinə göndərir, mütəmadi olaraq onlarla əməkdaşlıq edirdi. Bəzən tərcüməçi kimi də onlarla fəaliyyətini davam etdirib. Bu haqda 1900-cü ildə Naxçıvandan İrəvana dostu Qurbanəli Şərifova yazdığı məktubda oxuyuruq: "Bakıdan gəlmiş bir jurnalist xahiş etdi ki, onun "Kaspi" qəzetində çap olunmuş məqaləsini farscaya tərcümə edib, "Süräyya" qəzetinə göndərim".

İlk dəfə 1896-cı ildə Naxçıvanda qız məktəbi açan Sidqi bu haqda publisistik məqalələrində də bəhs edib. Xatirələrdən və tədqiqat əsərlərindən görürük ki, M.T.Sidqi Naxçıvanda dövrünün görkəmli ziyalılarından Qurbanəli Şərifov, Əsəd ağa Kəngərlinski, Paşa ağa Sultanov, Baxşəli ağa Şahtaxtinski və Mirzə Cəlillə çox yaxın dostluq edib. Lakin Mirzə Cəlilin xüsusi yeri olub. Bu, M.T.Sidqinin M.Cəlilə yazdığı məktublarda açıq-aydın özünü büruzə verir. "Mənim yeganə dostum olan Cəlilin qulluğuna mənim xüsusi salamımı yetir"- deyə Qurbanəli Şərifova yazdığı məktublarda dönə-dönə bunu təvəqqe edib. Məktublardan belə də bəlli olur ki, Mirzə Cəlil Naxçıvana gələrkən dostları arasında ilk baş çəkdiyi də M.T.Sidqi olub və bütün ömrü boyu bu dostluğa sadiq qalıb. Hətta M.T.Sidqi dünyasını dəyişəndən sonra onun oğlu Məmmədhəsəni öz himayəsinə götürüb. Bu hadisəni Məmmədhəsən illər sonra belə xatırlayırdı: "...Novruz bayramından bir gün keçmişdi. Mirzə əmi bizə atamın qara bayramına başsağlığına gəldi. Onda mənim on iki yaşım var idi. Mirzənin anamla söhbəti yadımdadır. O, anama təsəlli və ürək-dirək verəndən sonra dedi ki, İsmət bacı, uşaqların fikrini çəkmə. Gələndə onlardan birini verəsən aparım Tiflisdə saxlayım, böyüdüm, oxudum. Anam əvvəl nəm-nüm elədi, sonra mənim getməyimə razılıq verdi. Mirzə qızı Münəvvəri, məni və bacısı oğlu Əbil Kələntərlini Tiflisə gətirdi".



Qərənfil Dünyamin qızı
Əməkdar jurnalist

Tədqiqatçı alim Qulam Məmmədli müsahibələrindən birində söyləyirdi: "İllər sonra da Məmmədhəsən bu xeyirxahlığı unutmamış. Mirzənin qızı Münəvvər ölüm yatağında olanda Məmmədhəsən ona qayğıkeşlik göstərmiş, qulluğunda durmuş". Bu haqda "Cəlil Məmmədquluzadə Ensiklopediyası"nda da informasiya verilib (Bax:.s. 258).

Mirzə Cəlil Sidqinin ikinci oğlu Məmmədəlini də Tiflisə yanına gətirmiş və "Molla Nəsrəddin" jurnalında işlə təmin etmişdir. Hətta bir neçə ay (13.11.1910-16.03.1911) jurnalın redaktorluğunu ona həvalə etmişdir. O, Məmmədəliyə 9 iyun 1910-cu il tarixində yazdığı məktubu belə bitirib: "...mərhum Sidqi bəradərimin oğlu ilə gələcəkdə dostluğum baş tutarsa, özümü xoşbəxt hesab edərəm".

Əziz dostu, amal və əqidə yoldaşı olan M.T.Sidqinin qəfil və müəmmalı ölümü Mirzə Cəlili çox məyus edir. O, kədərini "Şərqi-Rus" qəzetinin 30 yanvar 1904-cü il tarixli sayında çap olunan məqaləsində bildirərək bunu yalnız özü üçün deyil, bütöv Naxçıvan əhli üçün böyük itki adlandırır.

Doğrudan da M.T.Sidqinin ölümü uzun müddət müəmmalı olaraq qalıb. Bu haqda ədəbiyyatşünas alim, M.T.Sidqinin oğlu Məmmədəli Səfərovla yaxın dostluq əlaqələri olan Qulam Məmmədli yazırdı: "Sidqi Naxçıvanın yaxınlığında, Qarabağlar kəndinə qonaq getdiyi evdə qəflətən vəfat etmişdir. Sidqinin oğlu Məmmədəli Səfərovla söhbətimdə atasının xörəyinə zəhər qatıldığı haqqında işarələr olduğunu hələ uşaq ikən eşitdiyini söyləmişdi".

H.Cavid demiş: "...zavallı Sidqi sönüb getdi". Amma xoş və xeyirxah əməlləri Azərbaycan xalqı var olduqca yaşayacaq, yad olacaq.

# 100 mümkün baldan 77 bal

## Rezidentura səviyyəsinə keçirilən qəbul imtahanında ən yüksək nəticə budur

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) baza ali tibb təhsili əsasında həkim-mütəxəssislərin hazırlanması məqsədilə rezidentura səviyyəsinə keçirilən qəbul imtahanının I mərhələsinin nəticələrini elan edib. TQDK-nın mətbuat xidmətindən verilən məlumata görə, nəticələrə əsasən, imtahanda iştirakı nəzərdə tutulan 1239 nəfər namizəddən 53 nəfəri imtahana gəlməyib.**

442 nəfər namizəd I mərhələnin müsabiqə şərtini (40 və daha yüksək bal) ödəyərək ikinci mərhələyə buraxılıb.

Ən yüksək nəticə toplanılması mümkün olan 100 baldan 77 bal olub.

Məlumat üçün bildirək ki, hər bir namizəd TQDK-nın internet saytına daxil olaraq imtahan nəticələri və cavab kartının qrafik təsviri ilə tanış ola bilər. Namizədlər imtahan nəticələri barədə məlumatı, həmçinin mobil telefonla 7727 nömrəsinə iş nömrələrini göndərməklə də öyrənə bilərlər.

Qeyd edək ki, rezidentura səviyyəsinə qəbul imtahanının II mərhələsi iyulun 29-da keçiriləcək və namizədlərin ixtisas fənləri üzrə bilikləri yoxlanılacaq.

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*